# Aprel döyüşləri gələcək böyük qələbələrimizin rəhni oldu



***2016-cı ilin aprelində baş vermiş və ordumuzun şəksiz qələbəsi ilə nəticələnmiş məşhur dörd günlük müharibənin başa çatmasının altıncı ili tamam oldu. Bu döyüşlər zamanı Ermənistan ordusu Azərbaycan əsgərinin sarsıdıcı zərbələri qarşısında təslim olaraq, mövqelərini qoyub qaçmış, ciddi məğlubiyyətə uğramışdı. Elə 4 günlük Aprel döyüşlərindəki qələbə ruhu rəşadətli ordumuza 44 günlük Vətən müharibəsində işğal altındakı bütün torpaqlarımızı azad etmək üçün yeni güc verdi.***

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev 2016-cı ilin Aprel döyüşləri haqqında danışarkən bildirib ki, bu 4 günlük müharibə tariximizin şanlı səhifəsidir. Onun sözlərinə görə, Aprel döyüşləri Azərbaycan Ordusunun böyük tarixi qələbəsi, müasir tariximizin ən uğurlu hərbi əməliyyatlarından biridir. Bu döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tutub. Ermənistanın təxribatlarının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirərək, strateji əhəmiyyətli Lələtəpə yüksəkliyini, Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının bir hissəsini, ümumilikdə, minlərlə hektar torpağı işğalçılardan azad edib. Döyüşlər zamanı hərbçilərimiz böyük peşəkarlıq, qəhrəmanlıq göstəriblər.

Şübhəsiz ki, Azərbaycanın müasir hərb tarixində Aprel döyüşlərinin əhəmiyyəti böyükdür. Bu, hərbi cəhətdən çox uğurlu əməliyyat olub. Çünki qəhrəman əsgər və zabitlərimiz əlverişsiz mövqelərdən irəliləyərək çox önəmli strateji yüksəklikləri işğalçılardan azad edib, minlərlə hektar ərazini nəzarət altına alıblar. Bu döyüşlər mənəvi-psixoloji baxımdan da böyük əhəmiyyət kəsb edir. Çünki uzun illər ərzində Ermənistan təbliğatı belə bir mif yaratmağa çalışmışdı ki, guya, hərbi cəhətdən Azərbaycandan güclüdür. Ancaq Aprel döyüşləri Ermənistana da, bütün dünyaya da göstərdi ki, Ermənistan ordusunun məğlubedilməzliyi ilə bağlı söhbətlər sabun köpüyündən başqa bir şey deyil. Ermənistanın yaratdığı mif dörd gün ərzində tamamilə darmadağın edildi.

Aprel döyüşləri nəticəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə yeni həyat verilib. Cəbhə xəttinin cəmi bir addımlığında olan bu kənd üçün yeni təhlükəsizlik şəraiti təmin edilib, qısa müddət ərzində yenidən qurulub, sakinlər üçün yeni evlər, eləcə də məktəb, uşaq bağçası, tibb məntəqəsi, Şuşa məscidinin bənzəri olan yeni məscid tikilib, iş yerləri yaradılıb. Bu gün Cocuq Mərcanlı özünün şanlı günlərini yaşamaqda davam edir.

Dövlət başçımız həmin günlərdə bəyan etmişdi ki, Cocuq Mərcanlıya yeni həyat verilməsi onu göstərir ki, Azərbaycan xalqı Ermənistanın işğalı ilə heç vaxt barışmayacaq. Tarix 2020-ci ilin payızında Prezident İlham Əliyevin bu fikrini təsdiq etdi. Həmin il noyabrın 10-da işğal altındakı torpaqlarımız tamamilə azad edilib, ərazi bütövlüyümüz bərpa olunub.

Onu da qeyd etməliyik ki, 2018-ci ildə Azərbaycan Ordusu özünün Aprel döyüşlərindən başlanan qələbələr tarixini uğurlu Naxçıvan əməliyyatı ilə zənginləşdirib. Bu əməliyyat nəticəsində hərbçilərimiz vacib əhəmiyyətli strateji yüksəkliklərə sahib olublar. Əməliyyat nəticəsində ordumuzun 11 min hektarlıq əraziyə, o cümlədən, İrəvan–Gorus–Laçın–Xankəndi avtomobil yoluna nəzarəti mümkün olub. Demək olar ki, itkisiz başa çatmış Naxçıvan əməliyyatı göstərdi ki, ordumuzun peşəkarlığı istənilən vəzifəni uğurla həyata keçirməyə imkan verir. Bax, bütün bunlara, eləcə də İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətlərə görədir ki, bu gün hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Azərbaycan Ordusu ilə fəxr edir.

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 5 aprel.- S.11.